# Ermənistanın aldığı hərbi texnikalar Qənimətlər Parkının növbəti eksponatları ola bilər



**"Ermənistan sürətlə silahlandırılır və Fransa ilə yanaşı, Hindistan da bu prosesdə önəmli yer almaqdadır. Ermənistan xarici işlər naziri Ararat Mirzoyan açıqlamasında bildirib ki, Hindistanla Ermənistanın müdafiə qabiliyyətinin güclənməsi istiqamətində danışıqlar aparılır".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Arzuxan Əlizadə deyib. O bildirib ki, Hindistandan Ermənistana bir sıra silahlar verilir. Ermənistan, həmçinin "Pinaka" raket sistemini almaqla, əslində, Hindistan istehsalı olan hərbi texnikanın ilk alıcısı olub. Artıq ermənilər özləri də etiraf edirlər ki, Hindistan Ermənistan ordusunun əsas təchizatçılarından birinə çevrilib. Bu ölkələrin hərbi tərəfdaşlıqla bağlı münasibətləri kifayət qədər yaxşılaşıb. Düzdür, Mirzoyan iddia edir ki, Hindistandan alınan bu silahlar yalnız Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsinə və modernləşdirilməsinə istiqamətlənib və heç bir halda üçüncü ölkəyə qarşı bu silahlardan istifadə edilməyəcək. Amma bu, növbəti erməni riyakarlığıdır. Davamlı olaraq silahların alınması, həm də bunların yalnız müdafiə deyil, hücum xarakterli silahlar olması onlardan istifadə etmək məqsədini daşıyır.

"Ermənistanın revanşist addımlar atmaq üçün hər zaman imkan axtardığı göz önündədir. Bu toplum, qondarma dövlətin başbilənləri elə xislətə malikdir ki, bir balaca münbit şərait yaradılarsa, belə addımlar atmağa qalxacaq. Son dövrlərdə Ermənistan ordusunun sürətlə silahlandırılması, ona vədlər verilməsi, Fransa başda olmaqla, Avropa İttifaqı ölkələri tərəfindən dəstək göstərilməsi, şərti sərhəddə son təxribatlar da onu deməyə əsas verir ki, bu silahlandırılma siyasəti boşuna deyil. İstənilən halda bu silahlandırılma regionda sülhə və sabitliyə böyük təhdiddir. Bunu nəzərə almaq lazımdır", - deyə o əlavə edib.

Azərbaycan Ordusunun da öz arsenalını gücləndirməkdə olduğunu vurğulayan deputat diqqətə çatdırıb ki, Ermənistanın silahlandırılması fonunda ölkəmizin müdafiə qabiliyyətini artırmaq istiqamətində addımlar atılır və atılacaq. Builki dövlət büdcəsindən ordumuzun gücləndirilməsinə, hərbi sənayenin inkişafına, müdafiə qabiliyyətinin artırılmasına 8,4 milyarddan artıq vəsait ayrılıb. Regionda sülhün və sabitliyin əsas qarantı olan Azərbaycan gücünü bir qədər də artırmalıdır ki, bu cür təhdidlər qarşısında dayanmaq imkanına malik olsun. Bir müddət əvvəl Prezident İlham Əliyev kifayət qədər açıq şəkildə bildirdi ki, Ermənistana verilən silahlar geri qaytarılmalıdır. Ermənistanın otuz il ərzində işğal siyasəti yürütdüyü məlumdur, bu kontekstdə məğlub dövlətin növbəti dəfə silahlandırılması heç də yaxşı gələcək vəd etmir. Əslində, Ermənistana uzun müddət ərzində silahların verilməsinə qadağa qoyulması prioritet məsələlərdən biri idi. Təəssüflər olsun ki, Ermənistana havadarlıq edən dövlətlər bunu gözardı etdilər.

A.Əlizadə bildirib ki, Ermənistanın bu cür silahlandırılması heç də o demək deyil ki, bununla nəyəsə nail ola bilər: "Ən yaxşı halda həmin silahlar Bakıda Qənimətlər Parkının növbəti eksponatlarından birinə çevriləcək. İlk növbədə, o silahlardan istifadə etmək qabiliyyətinə malik ordu olmalıdır ki, bu da Ermənistanda yoxdur. Bununla belə, Ermənistan kimi dövlətin silahlandırılması region üçün çox böyük təhdiddir. Qeyd edək ki, Azərbaycan yetərli imkanlara malikdir. Bu da qondarma dövlətin gələcəkdə törədə biləcəyi hər bir təxribatın qarşısını lazımi səviyyədə ala bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 13 mart (№ 55).- S.8.